# Azərbaycanda Mövcud Ailə Münasibətləri: Sosial-Psixoloji Təhlil

İctimai rəy sorğusu və sosioloji tədqiqatın nəticələri əsasında hazırlanmışdır



Bakı, 2021

Təhlil Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi ilə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən hazırlanıb.

Sorğu 2020-ci ilin aprel ayının 22-dən may ayının 9-dək olan dövrdə aparılıb.

# Tədqiqatın məqsədi

NO. 1

Ailədaxili münasibətlərdə müşahidə edilən dinamika və tendensiyaların öyrənilməsi, sosioloji təhlil əsasında aşkara çıxarılması

NO. 2

Ailə və cəmiyyət arasında formalaşmış sosial-psixoloji, mənəvi əlaqələrin, qarşılıqlı təsirin xüsusiyyətlərini müəyyənləşdirmək

NO. 3

Müasir nikah institutunun problemlərini, gənclərin ailə, ailə həyatı və dəyərləri barədə təsəvvürlərini nəzərdən keçirmək

NO. 4

Gənclər arasında alternativ evlilik formalarına münasibətin aşkarlanması

NO. 5

Azərbaycanda ailə həyat tərzi, ailədaxili münasibətlər, ailə mühitinin durumuna ictimai münasibəti öyrənmək

NO. 6

Azərbaycan ailəsi, onun xüsusiyyətləri, güclü və zəif tərəfləri ilə bağlı müzakirələrə təkan verməklə, ailə institutunun transformasiya vektorlarını, dövlət ailə siyasətinin yeni istiqamətlərini müəyyənləşdirmək yönündə müxtəlif nəsillərin arzu olunan ailə modelinin ümumi və spesifik xüsusiyyətlərini təqdim etmək

# Tədqiqatın metodoloji prinsipləri

**Tədqiqatın coğrafi əhatəsi:**

Bakı, Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Qarabağ, Quba-Xaçmaz, Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonları

Naxçıvan Muxtar Respublikası və işğaldan azad edilmiş rayonlar sorğuda əhatə edilməyib

**Respondent sayı:**

2400

**Rəyi öyrənilən ekspert-respondent sayı:**

27 (vəkil, hüquqşünas, qeyri-hökümət təşkilatlarının rəhbərləri, sosioloq, psixoloq, aidiyyəti qurumların nümayəndələri, digər)

## Respondentlərin sosial-demoqrafik göstəriciləri

| | | |
|---|---|---|
| I | azərbaycanlı | 96.7% |
| II | müsəlman | 98.6% |
| III | kişi | 50.3% |
| IV | qadın | 49.7% |
| V | tam orta təhsilli | 52.8% |

# Suallar aşağıdakı istiqamətlər üzrə olub

## 92 sual (83 spesifik, 9 sosial-demoqrafik)

- Ailələrin problemlərinin mənşəyinin və mahiyyətinin müəyyən edilməsi
- Ailə dəyərlərinə baxış, kollektiv sosial fəaliyyətlər, məişət işlərinin bölgüsü, cəmiyyətdə gender rollarına baxışın müəyyən edilməsi
- Ailə planlaşdırması, dünyaya gələcək uşağın cinsə görə seçilməsi, partnyorlar arasında cinsi münasibətin keyfiyyəti kimi məsələlərin öyrənilməsi
- Ailədə stress mənbələrinin müəyyən edilməsi
- Ailələrin sosial-psixoloji dəstək və xidmətlərə münasibəti, onlardan istifadə və məmnuniyyət, qurumlara müraciət etmə/etməmənin səbəbləri, bu istiqamətdə fəaliyyət göstərən qurumlar haqqında məlumatlılıq səviyyəsinin öyrənilməsi
- Ailənin iqtisadi vəziyyəti və ailə büdcəsinin idarəedilməsi
- Ailədə uşağın tərbiyə üsulları, övladın böyüdülməsində valideynlərin iştirakı, qarşıya çıxan problemlər, övladın maddi və mənəvi tələbatlarının ödənilməsi kimi məsələlərin araşdırılması



# İctimai rəy sorğusunun əsas nəticələrinin təhlili



## «Ailə kiçik dövlətdir» fikri ilə nə dərəcədə razısınız?




**Nəticələr onu göstərir ki, ailə sahəsində bəzi mənfi tendensiyaların yer almasına baxmayaraq, rəyi soruşulanlar arasında Azərbaycan ailə institutunun cəmiyyətdə və dövlətçilik həyatında statusu ilə bağlı fikirlər yüksək səviyyədədir.**

Ailə institutu, ailə və nikah münasibətlərinin cəmiyyətdə yeri

## Nələrin ailə dəyərlərimizə qarşı ziyanlı təsirlərini, təhlükələrini görürsünüz?




**Karantin rejiminin davam etməsi, yerli tv-də olan verilişlərin məzmunu, yerli seriallar, qərb ailə dəyərlərinin düzgün təbliğ olunmaması, cinsi azlıqlar mövzusunun təbliği, gender bərabərliyinin düzgün təbliğ olunmaması, anti-ailə təbliğatının çoxalması və s.**

- 64% Sosial şəbəkələrin
- 47.6% Maddi vəziyyətin
- 44.9% Xarici seriallar/kinoların
- 39.2% Qeyri-rəsmi nikahların rəsmi nikahlara münasibətdə çoxalması
- 37.2% Hər hansı səbəbdən ərin ailədən kənarda yaşaması
- 27.8% Tərəflərin dünyagörüşünün aşağı olması

# Nikah-evlilik münasibətlərində qohumluq əlaqələrinə münasibət

**Yaxın qohumlar arasında evlilik**

- Yaxşı
- Pis
- ÇÇ




**Uzaq qohumlar arasında evlilik**

- Yaxşı
- Pis
- ÇÇİ

## Bölmə 2

Evliliyə, övladlara, ailə üzvlərinə münasibət

# Evləndikdən sonra yeni ailə mühitinə neçə aya uyğunlaşa bilmisiniz?

- 44,2% — 1-6 aya
- 28,4% — 1 aydan az
- 16,7% — 7-12 aya
- 10.8% — 12 aydan çox

**Ailə psixologiyasına görə, tərəflər evliliyin ilk 3 ilini daha çox yeni mühitə - ailə mühitinə uyğunlaşma kimi dəyərləndirməli, qarşı tərəfin ailə üzvlərini tanımağa çalışmalı, gözləntilərinin nələrdən ibarət olduğuna diqqət etməlidirlər.**

# Hal-hazırda evinizdə neçə nəfər yaşayır?




Ailənin sosial institut kimi tarixi transformasiyasının mərhələləri həm də ailə üzvlərinin sayının azalan dinamikası ilə səciyyələnmişdir. Ailə strukturunun, ailələrin qismən nuklear (nüvələşmə) meyili müasir ailə modelinə xas olan cəhətlərdəndir. Nuklear ailə valideyn və həddi-buluğa çatmamış uşaqların birgə yaşadığı ailədir. Boşanmalar nəticəsində binuklear ailə sayları da çoxalır.

*Bölmə 3*

Məişət fəaliyyəti.
Vəzifələrin bölgüsü və qərar verməyə münasibət

# Ailənizdə verilən qərarlara kənar müdaxilə hansı tezliklə olur?



*Bölmə 3*

Məişət fəaliyyəti.
Vəzifələrin bölgüsü və qərar verməyə münasibət

# Sizin ailənizdə övladların sayı ilə bağlı qərarlar necə verilib?



Bölmə 4

Ailənin iqtisadi qayğıları və problemləri

# Hazırda ailənizdə kimlər gəlir əldə edir?



## Bölmə 4

Ailənin iqtisadi qayğıları və problemləri

**STM-nin son dövrlərdə apardığı sorğularda «Özünüzü hansı sosial təbəqəyə aid edirsiniz?» sualına bir qayda olaraq respondentlərin 60%-dən çoxu «orta təbəqə» cavabını verib. Bu isə əhalinin özünün sosial statusunun qiymətləndirilməsində əsas amilin gəlir səviyyəsi olduğunu göstərir.**



- Yuxarı gəlirli 1%
- Aşağı gəlirli 35.4%
- Orta gəlirli 63.6%

# Bölmə 5

Ailə həyatının sosial-mədəni fəaliyyət istiqaməti

## Ailə olaraq birlikdə evdən kənarda daha çox vaxt keçirtmək istərdinizmi?

- Bəli 81%
- Xeyr 19%

## Ailəniz ilə niyə daha çox vaxt keçirtmirsiniz?

- Maddi durumumuz buna imkan vermir 75.3%
- Vaxt çatdıra bilmirik 23.1%
- Getməyə yer yoxdur 3.5%
- Kənarda vaxt keçirmək maraqlı deyil 1.5%
- Ailə böyükləri buna razı olmur 0.9%
- Digər 8.4%

## Ailənin potensial problem və stress mənbələri

# Ailənizdə əsasən hansı məsələlərə görə problemlər yaranır?

| | |
|---|---|
| 36.9% | Maddi məsələlərə görə |
| 8.9% | Qısqanclığa görə |
| 4.9% | Digər ailə üzvlərinin müdaxiləsinə görə |
| 0.3% | Həyat yoldaşımın mənə qarşı deyil, başqalarına meyil etməsinə görə |
| 9.9% | Uşaqla bağlı məsələlərdə anlaşılmazlığa görə |
| 7.1% | Uşağın tərbiyə olunmasına görə |
| 2.6% | Həyat yoldaşımın mənə qarşı laqeyidliyinə görə |
| 1.2% | Digər |
| 9.4% | Yaşayış şəraitinə görə |
| 6.1% | Gələcəklə bağlı hər hansı plan qurarkən yaranan fikir ayrılığına görə |
| 1.2% | Həyat yoldaşımın mənə qarşı hörmətsizliyinə görə |
| 41.8% | Problem yaranmır |

# Bölmə 7

Boşanmalara münasibət

## Sizcə ətrafınızda olan insanlar əsasən nəyə görə boşanıblar?



Bölmə 7

Boşanmalara münasibət

# Təşkil olunan mediasiya xidməti boşanmaların qarşısının alınmasına necə təsir edəcək?



- 33.8% Müsbət olacaq
- 3.1% Mənfi olacaq
- 15.6% Heç bir təsiri olmayacaq
- 45.9% Bu haqda heç bir məlumatım yoxdur
- 1.7% ÇÇ

# Bölmə 7

Boşanmalara münasibət

## Ailənizdə hər hansı ciddi problem olarsa, boşanarsınızmı?

- Xeyr 73%
- Bəli 19.1%
- İmtina 5.2%
- ÇÇ 2.7%

## Qızların 18 yaşına çatmamış evləndirilməsi halı nə dərəcədə olur?

Yaşadığınız ərazidə

- 10.8% Tez-tez
- 30.5% Bəzən
- 38.1% Heç vaxt
- 20.5% Məlumatım yoxdur

Qohumlar arasında

- 4.8% Tez-tez
- 21.8% Bəzən
- 62.7% Heç vaxt
- 10.7% Məlumatım yoxdur

Bölmə 8

Azərbaycanda ailə, qadın və uşaq münasibətlərini tənzimləyən qurumlarla bağlı məlumatlılıq və müraciət

# Ailədə zorakı vəziyyət baş verərsə ilk olaraq hara müraciət edərsiniz?

- Heç yerə
- Qohuma
- Belə bir hal baş verməz




- Polisə
- Müvafiq qurumlara
- Digər

67.5%

Xeyr

32.5%

Bəli

# Azərbaycanda ailə, qadın və uşaq münasibətlərini tənzimləyən qurumların olması ilə bağlı məlumatınız varmı?

## Ailə həyatınızdan nə dərəcədə məmnunsunuz?

70.6 % Tam

25.7 % Qismən

3.8 % Heç

## Övladlarınızın tərbiyəsi ilə əsasən kimlər məşğul olur?

91.6% Qadın

67.7% Kişi

9.9% Valideynim

6% Qayınana /qayınata

4.4% Digər

Bölmə 9

Ailədə valideyn-övlad münasibətləri

# Dövlət daha hansı formada ailələrə dəstək verməlidir?

60% — **Uşaq müavinətləri**

53.1 % — Aztəminatlı ailələrə maddi dəstək

25.5 % — Yeni ailə quran işsiz gənclərin işlə təmin olunması

9.6 % — İpoteka şərtlərinin yüngülləşdirilməsi

5.5 % — Uşağı olmayan ailələrə süni mayalanmada güzəştlərin olması

4.5 % — İş təyinatlarında hər iki tərəfin həyat şərtlərinin nəzər alınması

# Nəticələr



# RESPONDENTLƏR TƏRƏFİNDƏN ƏN ÇOX AŞAĞIDAKI MƏSƏLƏLƏRƏ TOXUNULUB

**17 dəfə**

Uşaqların sayının azalması

**15 dəfə**

Sosial şəbəkələrin ailə dəyərlərinə mənfi təsiri

**14 dəfə**

Ailə institutunun gücləndirilməsi

**13 dəfə**

Mediasiya xidmətindən müsbət gözləntilər

**12 dəfə**

Ailə quran gənclərin müasirləşməsi

**11 dəfə**

Şəhər və kənd yerlərində ailə xüsusiyyətlərində fərq

Azərbaycan ailəsi son otuz ildə nəinki bir ictimai-siyasi quruluşdan digərinə keçid prosesini yaşayıb, reallıqda fövqəlmürəkkəb, «çoxqatlı» transformasiyaların təsirinə məruz qalıb.

Azərbaycan ailəsi ənənəvi patriarxal ailə modelindən müasir-post modern ailə modelinə doğru transformasiya prosesindədir. Bu baxımdan hazırki ailə tipi müəyyən dərəcədə «keçid-transformasion» ailə tipinin xüsusiyyətlərini daşıyır. Ailənin keçid prosesindən hansı xüsusiyyətlərlə çıxması – hazırkı vəziyyətin dərindən təhlilinə əsaslanan dövlət ailə siyasətindən birmənalı asılı olacaq.

Qlobal informasiya inqilabı və onun dövlətlərin daxili işlərinə müdaxilə üçün sui-istifadə edilməsi klassik ailə modelinin əsaslandığı ənənəvi ailə dəyərlərinin dəyişməsinə, tənəzzülünə və sıradan çıxmasına səbəb olur.

**Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulması, yəni qız uşaqlarının selektiv abort edilməsi nəticəsində doğuş üzrə təbii cins balansının pozulması yönündə təəssüfedici tendensiyada ölkəmiz «dünya 1-cisi» olmağa doğru gedir.**

**Ailələrə ayrılan sosial dəstək siyasətinin təkmilləşməyə ehtiyacı var.**

**Sorğu gedişində TV-lərdə nümayiş edilən yerli veriliş və proqramların bəziləri ailə dəyərlərinə ziyanlı təsir edən amillər kimi qiymətləndirilib. Ölkədə ailə dəyərlərini təbliğ edən televiziya verilişlərinin olmadığı bir şəraitdə bəzi proqramlar 24/7 rejimində Azərbaycan ailə modelinə tarixən xas olmayan ailələrdə xəyanət, övladlardan imtina, məişət zorakılığı, ailə münaqişələri, erkən nikahlar, yoxsul ailələr və s. antisosial dəyərləri təbliğ edən süjetləri tirajlayır.**

**Bir çox gənclərdə formalaşan ailə həyatı, ər-arvad münasibətləri barədə ziddiyyətli təsəvvürlər səbəbindən evlilik yaşı uzanır, onlar evlənməkdən qorxur, yaxud onu qeyri-müəyyən vaxta qədər təxirə salırlar**

# Tövsiyələr

## DÖVLƏT AİLƏ SİYASƏTİ SAHƏSİNDƏ

## AİLƏNİN RİFAHI, AİLƏ YÖNÜMLÜ SOSİAL SİYASƏT SAHƏSİNDƏ

## ELMİ, MƏDƏNİ-İDEOLOJİ, MEDİA VƏ İNFORMASİYA SİYASƏTİ SAHƏSİNDƏ

# Dövlət ailə siyasəti sahəsində

NO. 1

«Dövlət ailə məsələləri üzrə strategiya»nın hazırlanması gündəmdə duran ilk vəzifələrdəndir; yeni Milli Fəaliyyət Planı, «Azərbaycan ailəsi», «Güclü ailə güclü dövlət» adlı dövlət proqramları hazırlanmalıdır.

NO. 2

Azərbaycanda ailə siyasətinin büdcəsi yenidən nəzərdən keçirilməlidir.

NO. 3

Ölkədə «Ailə psixoloqu» mütəxəssislərinin hazırlanması vacibdir.

NO. 4

Ailə siyasətini reallaşdıran infrastrukturun, qurumların institusionallaşması yönündə əsas və köməkçi təsisatların paytaxt və bölgələrdə yaradılması məqsədəuyğundur.

NO. 5

«Ailə mediasiyası» institutunun təsis edilməsi, ailə münaqişələrinin həlli mexanizmi kimi onun rolunun artırılması gündəmə daxil edilməlidir.

# Ailənin rifahı, ailə yönümlü sosial siyasət sahəsində

NO. 1

Ailə siyasətində ailənin sosial siyasətin subyekti kimi görülməsi modelindən ailə ilə dövlət arasında qarşılıqlı məsuliyyətin eyni dərəcədə bölüşdürüldüyü tərəfdaşlıq modelinə keçilməsi günün tələbidir.

NO. 2

«Böyük Qayıdış» proqramı çərçivəsində gənc ailələrə dəstək tədbirlərinin keçirilməsi, «Qarabağda Gənclər şəhərciyi»nin salınması məqsədəuyğun olardı.

NO. 3

Ölkədə əhalinin sosial-iqtisadi vəziyyəti ilə nəsilvermə xüsusiyyətləri arasında möhkəm əlaqələrin olduğunu nəzərə alaraq, ailə-uşaq imtiyazları və sosial yardım proqramlarının hazırlanması faydalı olar.

NO. 4

Uşağa qulluq, analıq məzuniyyətinin müddəti və ödənişinin artırılmasına ehtiyac var.

NO. 5

Gənc ailələrə dəstək siyasətinin ən mühüm istiqamətlərindən biri də ev, mənzil məsələsidir. Güzəştli mənzillərin əldə edilməsi şərtləri asanlaşdırılmalı, xüsusilə gənclər üçün əlçatan olmalıdır. Sosial evlər, ipoteka şərtləri hələlik çoxsaylı gənclərimizi əhatə edə bilmir.

# Elmi, mədəni-ideoloji, media və informasiya siyasəti sahəsində

NO. 1

Ailə tədqiqatlarının aparıldığı «Azərbaycan Familistik Tədqiqatlar Elmi Mərkəzi»nin yaradılmasının gündəliyə salınması məqsədəuyğundur.

NO. 2

Milli və mədəni xüsusiyyətlər və ənənələr nəzərə alınmaqla ailəyə sosial dəstək siyasətinin mütərəqqi xarici modellərinin tətbiqi arzu olunandır.

NO. 3

Bütün səviyyələrdə dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında tərəfdaşlığın güclənməsi zəruridir.

NO. 4
Ailələrdə asudə vaxtın səmərəli təşkili üçün paytaxtda və regionlarda «Ailə evləri»nin təsis edilməsi, burada çoxsaylı dərnəklərin, valideynlərlə birlikdə vaxt keçirməyə imkan verən festival və yarışların təşkili məqsədəuyğun olardı.

NO. 5

Azərbaycanda ilk olaraq «Ailə TV» adını daşıyan, ailə məsələlərindən, ailə dəyərlərindən yayımlar hazırlayan Ailə Televiziyasının yaradılması ilə bağlı müzakirələr aparıla bilər.

NO. 6

Dünyanın bir çox ölkələrinin özünün milli «Ailə Günü» var. Azərbaycanda yalnız «Beynəlxalq Ailə Günü» qeyd edilir, «Azərbaycan ailəsi günü»nün təsis edilməsi gündəliyə daxil edilməlidir.

# Diqqətinizə görə minnətdarıq!